# Sənətkar ömrü



Teatr və kino sahəsində öz sözünü deyən sənətkarlarımızdan biri də Həsənağa Salayevdir. Uğurlu yaradıcılıq yolu keçən aktyorumuzun ölümündən 34 il ötür. O, 1981-ci il oktyabrın 22-də dünyadan köçüb.

Həsənağa Salayev 5 dekabr 1921-ci ildə Bakı şəhərində anadan olub. Orta məktəbdə oxuduğu dövrlərdə teatr sənətinə böyük həvəsi olan Həsənağa Salayev buranı bitirdikdən sonra Bakı Teatr Texnikumuna daxil olur. Və tələbə ikən Akademik Milli Dram Teatrının aktyor heyətinə qəbul edilir. Onun vaxtilə yaratdığı Fərhad, Əziz, Mustafa, Montano, Sezar, Abbas, Cavanşir və b. obrazları illər keçməsinə baxmayaraq, hələ də sevilərək xatırlanır. Həsənağa Salayev həm şəxsiyyət, həm də peşəkar aktyor kimi rejissorlar üçün tapıntı idi. Rejissorlar da onun bu aktyorluq potensialından həm kinoda, həm də teatrda geniş istifadə edirdilər.

Həyat yoldaşı Sərvət xanım Salayeva Həsənağa Salayev haqqında xatirələrini bölüşərək deyir:

"Əgər kimdən Həsənağa haqqında soruşsanız, hamı onun yaxşı insan olduğunu vurğulayacaq. Onu hafizələrdə yaşadan şəxsiyyəti qədər də önəmli olan sənəti idi. İşinə qarşı məsuliyyətli insan idi. İşə gecikməyi heç sevməzdi. Hər kəslə ünsiyyət qurmağı bacarırdı. Yaratdığı obrazların heç biri bir-birinə bənzəmirdi. Hər bir obrazına yeni həyat verirdi. Çox filmlərə dəvət alsa da, hamısını qəbul etmirdi. Obrazlarının böyük-kiçikliyindən asılı olmayaraq hər birinə öz imzasını qoymağı bacarmışdı.

İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə ilə çox səmimi dostluq münasibətləri var idi. Onlarla tez-tez görüşər və ədəbiyyata dair müzakirələr edərdilər. Gününün çoxunu da məhz mütaliəyə həsr edərdi.

Səsində qürur, əminlik, qətiyyət var idi. Əlbəttə ki, bunlar da yaratdığı obrazlara xüsusi çalarlar qatırdı. Həsənağanın çəkildiyi filmləri telekanallarda nümayiş etdirəndə çox sevinirəm. Düşünürəm ki, o, hələ də kino sənətimizdə yaşayır. Fikrimcə, Həsənağanın yaradıcılığı kino və teatr sənətimizə örnəkdir. Onun kimi sənətkarlar heç zaman undulmayacaqlar".

Bəli, əsl sənətkarlar ölmürlər. Onlar yaratdıqları obrazlarda, rəsm əsərlərində, bədii əsərlərdə və bir də sənətə dəyər verən insanların qəlblərində, xatirələrində yaşayırlar. Mənsub olduqları xalqın mədəniyyət tarixinə adını yazmaq xoşbəxtliyi hər kəsə nəsib olmur. Həsənağa Salayev də özünə əbədilik, ölməzlik qazanan sənətkarlardandır.

**Arzu MƏMMƏDNAĞIYEVA.**